

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 40 (21.192)

26 fevral 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-Türkiyə əlaqələrinin daha da genişləndirilməsi işinə yeni təkan verəcəyinə əminliyini bildirdi. Türkiyəyə dövlət səfərinin və Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının uğurla keçdiyini məmnunluqla xatırlayan Prezident İlham Əliyev səfər zamanı birgə fəaliyyətlə bağlı gələcək planların müzakirəsinin önəmini qeyd etdi.

Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Xarici İşlər naziri kimi ilk rəsmi səfərini Azərbaycana etməsindən məmnunluğunu bildirdi. Mövlud Çavuşoğlu Prezident İlham Əliyevin Türkiyəyə dövlət səfərinin və Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi.

Görüşdə Bakı-Tbilisi-Qars, TANAP layihələri, hərbi-texniki əməkdaşlıq və əlaqələrimizin digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.

## Naxçıvanlılar Xocalının müdafiəsində



*"1990-cı illərin əvvəllərində ağır blokada vəziyyətində olan, faktiki olaraq dünyadan təcrid edilən, işğal təhlükəsi ilə daim üzüzə qalan Naxçıvan Muxtar Respublikası erməni cəlladlarına qarşı ölüm-dirim savaşı aparırdı. Buna baxmayaraq, naxçıvanlılar həmvətənlərinin harayına səs verib və qədim diyardan bir qrup könüllü Qarabağa yollanaraq Xocalı uğrunda, Vətən uğrunda döyüşlərə atılıb".*

Bu fikirlər fevralın 25-də Azərbaycan Mili Elmlər Akademiyasının (AMEA) Naxçıvan Bölməsində "Xocalı faciəsi: insanlığa qarşı cinayət" mövzusunda keçirilən elmi konfransda səsləndirildi.

Əvvəlcə Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirdi ki, erməni cəlladlarının Xocalının dinc əhalisinə qarşı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə görünməmiş qəddarlıqla divan tutmaları daşnak şovinizminin iç üzünü, onun mahiyyətini bir daha bütün dünyaya nümayiş etdirdi. Hadisənin şahidi olan xarici jurnalistlər də təsdiqləyirlər ki, ermənilər və onların havadarları Xocalıda törətdikləri qəddarlıqlarla faşistləri belə üstələyiblər. Ermənilər dinc əhaliyə – körpəyə, uşağa, qadına, xəstəyə, qocaya belə aman verməyiblər.

İsmayıl Hacıyev qeyd etdi ki, Xocalı hadisələrinə hüquqi-siyasi qiymətin verilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ümummilli liderin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti erməni faşistlərinin törətdiyi Xocalı faciəsi haqqındakı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü və sistemli iş aparır. Son illərdə "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə birgə səmərəli fəaliyyət göstərirlər.

Elmi konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun "Xocalı faciəsinə gedən yol", həmin institutun direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadənin "Xocalı faciəsinin mahiyyəti", institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyevin "Xocalı faciəsi – azərbaycanlılara qarşı soyqırımı", institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyevanın "Naxçıvanlılar Xocalının müdafiəsində" mövzusunda məruzələri dinlənildi.

Məruzəçilər faciənin törədilməsi, onun ağır nəticələri və naxçıvanlıların Xocalının müdafiəsində iştirakı barədə ətraflı məlumat verdilər.

Tədbirdə Xocalı soyqırımı reallıqlarını əks etdirən fotoşəkillər və sənədlərdən ibarət slaydlar nümayiş etdirildi.

**Rauf ƏLİYEV**

## Təbrizdə Xocalı faciəsi qurbanlarının xatirəsi yad edilmişdir



***Fevralın 23-də Azərbaycan Respublikasının Təbrizdəki Baş Konsulluğunda Xocalı soyqırımının 23-cü ildönümü münasibətilə tədbir keçirilmişdir.***

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əli Əlizadə çıxış edərək demişdir ki, bu faciə bütün bəşəriyyət əleyhinə törədilən cinayətdir. Buna görə də soyqırımı ilə bağlı aparılan "Xocalıya ədalət" kampaniyasına bütün dünya ictimaiyyəti qoşulmalıdır. Tarix boyu erməni millətçiləri "böyük Ermənistan" yaratmaq planları ilə Azərbaycan, İran, Türkiyə və digər qonşu dövlətlərin ərazilərində yerli əhaliyə qarşı kütləvi qırğınlar törətmişlər. Bu soyqırımlar tarixi sənədlərdə də öz əksini tapmışdır.

Qeyd olunmuşdur ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul olunmuş, soyqırımına dair həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdır. Baş konsul soyqırımı tanıyan dövlətlərin və beynəlxalq təşkilatların sayının ilbəil artdığını bildirmiş, hazırda 12 ölkənin, o cümlədən Amerika Birləşmiş Ştatlarının 15 ştatının və İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu beynəlxalq təşkilatların Xocalı soyqırımını tanıdığını diqqətə çatdırmışdır.

Türkiyə Respublikasının Təbrizdəki Baş konsulu çıxış edərək işğalçı Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə məhəl qoymadığını, tarix boyu Türkiyə və Azərbaycan xalqına qarşı dəfələrlə terror hadisələri, qətliamlar törətdiyini, daim haqsız ərazi iddialarında olduğunu bildirmiş, insanlığa qarşı törədilmiş Xocalı faciəsinin dəhşətlərinin gələcək nəsillərə çatdırılmasının vacibliyini vurğulamışdır.

İran İslam Respublikasının vətəndaşı, "Xoca" filminin prodüsseri Eyyub Daneşvər mərasimdə çıxış edərək Xocalı soyqırımını insanlığa qarşı törədilmiş ən qəddar cinayətlərdən biri kimi dəyərləndirmişdir.

Çıxışlardan sonra Xocalı soyqırımının dəhşətlərindən bəhs edən film nümayiş etdirilmiş, soyqırımı qurbanlarının xatirəsinə ehsan süfrəsi açılmışdır. Mərasim iştirakçılarına Xocalı faciəsindən bəhs edən kitab, jurnal və bukletlər paylanılmış, soyqırımına həsr olunmuş fotostendə baxış olmuşdur.

Mərasimdə İran İslam Respublikasının Şərqi Azərbaycan Valiliyinin rəsmi şəxsləri, İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb Nümayəndəliyinin rəhbəri və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Xocalı soyqırımı ilə bağlı Baş Konsulluq tərəfindən hazırlanan məqalə yerli kütləvi informasiya vasitələrində dərc olunmuşdur.

**"Şərq qapısı"**

## Xatirə Muzeyi ilə məktəblər arasında canlı dərs aparılıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına təkan verib.*





Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb

Ötən il iyulun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin distant təhsilin muxtar respublikada tətbiqi üçün müvafiq qurumlara müxtəlif tapşırıqlar verməsi, tapşırıqların icrasının diqqət mərkəzində saxlanılması bu sahədə böyük uğurlar qazanılmasına imkan yaradıb. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili məqsədilə mərkəzi server qurulub, ümumtəhsil məktəbləri və muzeylər bu sistemə qoşulub. Həmin sistemdən videokonfransların, müəllim-şagird dialoqunun, mühazirələrin onlayn rejimdə təşkilində, seminarların keçirilməsində istifadə olunur.

Dünən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın 210 məktəbi ilə Xatirə Muzeyi arasında canlı dərs aparılıb. Xocalı faciəsinin 23-cü ildönümü ilə əlaqədar "Tariximizin Xocalı soyqırımı" mövzusunda keçilən açıq dərsdə muzeyin direktoru Aytən Mikayılova muzey haqda şagirdlərə ətraflı məlumat verərək bildirib ki, muzeydə 400-ə yaxın eksponat nümayiş etdirilir. Ötən əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri dəhşətli cinayətlərin izləri bu eksponatlarda öz əksini tapıb. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirildiyi muzeydə şəhidlərin fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar mühafizə və nümayiş etdirilir. Muzeydə eksponatların xalqımızın soyqırımı tarixi üzrə dövrləşdirilərək yerləşdirilməsi bura gələnlərin, xüsusilə gənc nəslin qəhrəmanlıq tariximiz haqqında ətraflı məlumat almasına imkan verir.



Şahbuz rayon Badamlı kənd tam orta məktəbi

Qeyd edilib ki, doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş soyqırımını pisləmək barədə müraciətlər edirlər. Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz. Təəssüf ki, XX əsrdə soyqırımı və etnik təmizləmə hadisələri baş vermiş tarixi faciələr olub. Xocalı faciəsi onların sırasında ən dəhşətlilərinə aiddir. Bu tarixi faciənin iştirakçısı olmuş cinayətkarlar vaxt gələcək, ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar. Tarix heç nəyi unutmur.

**Səbuhi HÜSEYNOV**

***Bu gün XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının törədilməsindən 23 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə əliyalın əhalinin, dinc sakinlərin yaşadığı Xocalı şəhəri erməni işğalçıları tərəfindən yerlə-yeksan edilmişdir. Erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşən, komanda və şəxsi heyətinin böyük hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın köməyi ilə son anadək qəhrəmanlıqla müdafiə olunan xocalıları amansızcasına qətlə yetirmiş, insanlara olmazın işgəncələr verilmiş, uşaq, qoca, qadın demədən hamısını vəhşicəsinə öldürmüşlər.***

# Bəşəriyyətin ən dəhşətli faciəsi – Xocalı soyqırımı

Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi bu şəhərin geostrateji mövqeyi ilə bağlı idi. Belə ki, bu ərazini zəbt etmədən Dağlıq Qarabağa nəzarət etmək qeyri-mümkün idi. Vaxtilə 7 min əhalisi olan Xocalı Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da məhz Xocalıda idi. Ermənilərin əsas istəklərindən biri məhz buradakı hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi.

1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal edilmişdi. Bunun ardınca Xocavənd də erməni işğalçılarının nəzarəti altına keçmişdi. Ancaq ermənilər üçün ciddi maneə hələ də qalmaqda idi. Belə ki, onlar azərbaycanlıların yaşadığı digər kəndlərə hücuma keçəndə silahlı erməni dəstələri Xocalıdan atəşə tutulurdu. Buna görə də Xocalının işğalı düşmən üçün vacib amilə çevrilmişdi.

1992-ci il yanvarın 10-da ermənilər Xankəndidə yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə Xocalı ətrafındakı Axullu kəndini işğal etmişdilər. Elə həmin ilin fevralında Malıbəyli və Quşçular kəndləri də işğal olunmuşdu. Həmin kəndlərin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı yenə də 366-cı motoatıcı alayın əsgər və zabit heyəti, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülər hesabına ermənilərin əlinə keçdi.

Onu da qeyd edək ki, 1991-ci il oktyabrın 30-dan Xocalı blokada vəziyyətində yaşayırdı. Şəhərin bütün avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi kimi vertolyot qalmışdı. Lakin Şuşa səmasında mülki vertolyotun vurulmasından, vertolyotun içindəki 40 azərbaycanlının həlak olmasından sonra şəhərlə hava əlaqəsi də kəsilmişdi. Sonuncu vertolyot isə 1992-ci il yanvar ayının 28-də Xocalıya enə bilmişdi...

Həmin dövrdə hər gün toplardan, ağır texnikadan atəşə tutulan Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Əsas qüvvələr isə Xankəndidə və Əsgəran istiqamətində yerləşdirilmişdi. Lakin bütün çətinliklərə, silah-sursat çatışmazlığına, canlı qüvvənin azlığına baxmayaraq, qəhrəman Xocalı döyüşçüləri düşmənə qarşı inadlı mübarizə aparırdılar. Təhlükəli vəziyyətə baxmayaraq, Xocalı sakinlərinin şəhəri tərk etməməsi, yerli müdafiə qüvvələrinin ciddi müqaviməti Naxçıvanda başı daşa dəymiş qaniçən erməniləri hiddətləndirmişdi. Bu nifrət, qəddarlıq, vandalizm 1992-ci il fevralın 25-dən 26-na keçən gecə özünü daha qabarıq şəkildə büruzə verdi. Ermənilər Xocalıda misligörünməmiş soyqırımı törətdilər. Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinləri yollarda, meşələrdə pusqu quraraq xüsusi amansızlıqla qətlə yetirdilər. Kütləvi qırğın nəticəsində 613 nəfər əliyalın dinc sakin öldürüldü. Onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i qoca idi. 1275 dinc sakin əsir götürüldü. Onların 150-nin taleyindən hələ də heç bir xəbər yoxdur. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideyni, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi.

Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkə jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırmışlar. Məsələn, Fransadan olan jurnalist Jan-İv Yunet yazır: “...Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə həlak olmuş dinc əhalinin – qadınların, kişilərin, qocaların və Xocalı müdafiəçilərinin meyitlərini gördük. Bizə helikopter verdilər, biz quş uçuşu hündürlüyündən Xocalı ətrafında nə gördüksə, hamısını çəkirdik. Bu, dəhşətli mənzərə idi. Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı barədə çox eşitmişəm, lakin ermənilər 5-6 yaşlı uşaqları, dinc əhalini öldürərək onları geridə qoyublar”. İngiltərəli jurnalist Rori Patriks isə qeyd edir ki, “Xocalıdakı faciənin miqyasını dünya ictimaiyyətinə anlatmaq çox çətindir. Biz jurnalistlər helikopterlə çətinliklə də olsa, ermənilərin məskunlaşdığı Naxçıvanik kəndinin yaxınlığına gələ bildik. Burada onlarla eybəcər hala salınmış meyit gördük. Onlar Xocalını müdafiə edən döyüşçülər deyildi, bu, Azərbaycan şəhərinin dinc əhalisi – qatillərin güllələdikləri uşaqlar, qadınlar, qocalar idi”.

Rusiyalı hərbçi Leonid Kravetsin dediyi faktlar da insanı dəhşətə gətirir: “...Fevralın 26-da mən Stepanakertdən yaralıları aparırdım və geriyə Əsgəranın üstündən uçdum. Gözümə aşağıda nəsə birtəhər parlaq ləkələr dəydi. Bir az aşağıya endim və burada mənim bortmexanikim qışqırdı: “Baxın, orada qadınlar və uşaqlar var”. Bəli, artıq elə mən özüm də görürdüm, təpənin döşündə səpələnmiş iki yüzə qədər meyit, onların arasında şübhəli adamlar gəzişirdi... Sonra biz uçduq, istədik meyitlərdən götürək. Bizimlə yerli milis kapitanı var idi, adını unutmuşam. O, orada başı parçalanmış dördyaşlı oğlunu tapdı və yazıq həmin anda huşunu itirdi. Bizə atəş açılana qədər götürməyə macal tapdığımız digər uşağın isə başı kəsilmişdi. Mən hər tərəfdə eybəcər hala salınmış qadın, uşaq, qoca meyitləri gördüm...”

Təəssüf ki, 1993-cü ilə qədər Azərbaycanda Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi istiqamətində heç bir tədbir görülməmişdir. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək “Xocalı Soyqırımı Günü haqqında” Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə müraciət edərək erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən, bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı “Xocalı Soyqırımı Günü” elan olunmuşdur. Ulu öndər Heydər Əliyevin “Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında” 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat 17$^{00}$-də ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Bu gün həmin siyasət Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülmüş, xarici dillərdə kitablar nəşr olunmuş, Xocalı soyqırımı müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilmiş, bununla bağlı internet saytları yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 13 fevral tarixli “Xocalıya ədalət” kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında” Sərəncamına əsasən, bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsi qərara alınmışdır.

Xocalı faciəsinin 20-ci ildönümü ilə əlaqədar 2012-ci il fevralın 26-da Bakıda ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə ümumxalq yürüşü olmuşdur. Paytaxtın Azadlıq meydanından başlayan, 60 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyırdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Xocalı soyqırımının iyirminci ildönümü haqqında” 2012-ci il 17 yanvar tarixli Sərəncamında Xocalı həqiqətlərinin bütün dünyaya çatdırılmasını bir vəzifə kimi qarşıya qoymuşdur: ***“Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən, insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi qiymətini almalıdır”.***

Bu gün Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət nəticəsində dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər. Hazırda Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina, Peru, Honduras, Sudan parlamentləri, İslam Əməkdaşlıq Təşkilatı Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanımışlar. Bundan əlavə, ABŞ-ın 15 ştatı da bu soyqırımını tanımışdır.

Müstəqil Azərbaycan Respublikasının yeritdiyi uğurlu xarici siyasət nəticəsində artıq dünya birliyi ermənilərin Xocalıda törətdikləri soyqırımı barəsində tam məlumatlıdır. Bu işdə dövlət başçısının gərgin fəaliyyəti ilə yanaşı, Heydər Əliyev Fondunun, xüsusilə fondun vitse-prezidenti Leyla Əliyevanın 2008-ci il mayın 8-də “Xocalıya ədalət” beynəlxalq kampaniyasının keçirilməsi təşəbbüsünü irəli sürməsi və bu gündək həmin kampaniyanın uğurla davam etdirilməsi özünün müsbət nəticələrini verməkdədir. Kampaniya çərçivəsində Rusiya, Türkiyə, Fransa, Macarıstan, Rumıniya, Belçika, Avstriya, Almaniya, Çexiya, İsveçrə, Gürcüstan və digər ölkələrdə silsilə tədbirlər keçirilmişdir.

Bu gün müstəqil Azərbaycan dövlətinin gündən-günə inkişaf edib möhkəmlənməsi və hərbi qüdrətini artırması Xocalı soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminatdır. Azərbaycan dövlətinin hərbi sahəyə ayırdığı xərclər Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Ermənistan nə hərbi sahədə, nə də digər sahələrdə Azərbaycanla müqayisə edilə bilməz. Ölkəmizin ərazi bütövlüyünü təmin etmək, Ermənistanın işğalçılıq siyasətinə birdəfəlik son qoymaq üçün dövlətimizin bütün imkanları vardır. Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi Xocalı şəhidlərinə və torpaq uğrunda canını fəda edən bütün Vətən övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır.

**“Şərq qapısı”**

# Xocalı Azərbaycanın qədim mədəniyyət mərkəzidir

Qarabağ Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycanın qədim abidələrindən biri olan Azıx mağarası da məhz elə bu ərazidə yerləşir. Azıx mağarası və onun ətrafında aparılan araşdırmalar Azərbaycanda insanların 2 milyon il bundan əvvəl məskunlaşdığını deməyə imkan vermişdir. Qarabağ abidələri Azərbaycanın Daş dövrü və Tunc dövrü mədəniyyətlərinin öyrənilməsi üçün əvəzsiz əhəmiyyətə malikdir. Qarabağın tariximiz üçün böyük əhəmiyyəti olan abidələrinin bir qrupu Xocalı şəhəri ətrafında yerləşir. Qədim Xocalı ətrafında yerləşən abidələr Tunc dövrünün bütün mərhələlərini izləməyə imkan verir. Bu mədəniyyət abidələri arasında Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü mədəniyyətinə aid Xocalı kurqanlarının özünəməxsus yeri vardır. Özünəməxsus xarakterik xüsusiyyətləri, xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkar olunmuş, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Hazırda müəyyən edilmişdir ki, Xocalı-Gədəbəy mədəniyyəti Mərkəzi və Cənubi Qafqazın böyük bir qismində geniş yayılmışdır. XX əsrin 90-cı illərində aparılan araşdırmalar zamanı bu mədəniyyətin Naxçıvan ərazisində də yayıldığı müəyyən edilmişdir.

Xocalıdan başqa, Dağlıq Qarabağın Axmaxı, Sırxavənd-Ballıqaya, Dovşanlı və digər kəndlərində aşkar olunan Xocalı-Gədəbəy mədəniyyəti abidələri hələ XIX əsrdən yabançı sərvət düşkünlərinin diqqətini cəlb etmişdir. Onlar bu mədəniyyəti qazanc əldə etmək məqsədilə dağıtmışlar. Hələ 1834-cü ildə Şuşaya gələn Dyubua de Monpere Elenendorf ətrafındakı abidələrdə qazıntı aparmışdır. Daha sonra kapitalizmin inkişafı ilə bağlı olaraq bir çox xarici şirkətlər Azərbaycanın təbii sərvətlərinə maraq göstərməyə başlamışdır. Simens şirkətinin 1864-cü ildə Gədəbəy mis mədənlərini aldıqdan sonra burada zavod inşa edilməyə başlanmış və zavodun inşası zamanı Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr dağıdılmışdır. Gədəbəy mis fabrikində elektrotexnik işləyən Valdemar Belk 350-dən artıq abidəni qazaraq dağıtmışdır. İmperator arxeoloji komissiyası V.Belkinin qazıntılarına qadağa qoyduqdan sonra onu Emil Resler əvəz etmiş və qarət olunmuş kolleksiyanın böyük bir qismi qadağan olunmasına baxmayaraq, Berlinə göndərilmişdir. Məlum olmuşdur ki, bu qazıntılara istiqamət vermiş və onu maliyyələşdirən Qafqaz mədəniyyət nümunələrinin kolleksioneri, Berlində yaşayan Rudolf Virxov olmuşdur. Xocalı-Gədəbəy mədəniyyətinin tədqiq edilməsində Y.İ.Hummel, A.A.İvanovski, İ.M.Cəfərzadə, H.F.Cəfərov, M.Hüseynova, Minkeviç-Mustafayeva və digər tədqiqatçıların xidmətləri olmuşdur.

Son illər bu maddi-mədəniyyət nümunələrinin tədqiqi ilə Nuridə Qədirova məşğul olmağa başlamışdır. Onun Almaniyada və Rusiyada olan maddi-mədəniyyət nümunələrini, o cümlədən arxiv materiallarını araşdırması nəticəsində müəyyən olmuşdur ki, alman mənşəli “tədqiqatçı”ların Rudolf Virov tərəfindən maliyyələşdirilməsinin əsas səbəbi onların hind-arilərin ana vətəninin axtarılması istəyi ilə bağlı olmuşdur. Onlar bununla da kifayətlənməyərək öz əsərlərində erməniləri hind-ari adlandırmış və Qafqazın qədim mədəniyyətlərini onlara aid etmişlər. E.Reslerin yazdığı hesabatlarda da Xocalı-Gədəbəy mədəniyyətinin ermənilərə aid olduğu göstərilmişdir. Hələ bu harasıdır, 1985-ci ildə Volfanq Naqel və Eva Ştromenqer Xocalı-Gədəbəy mədəniyyətinə aid materialların bir qismini “Qalakənd” kataloqu adı ilə nəşr etdirmiş və bu mədəniyyətin ermənilərə, abidələrin isə Ermənistana aid olduğunu yazmışdır. Söhbət həqiqətdən gedirsə, həqiqət naminə demək lazımdır ki, bu mədəniyyətin ermənilərə heç bir aidiyyəti yoxdur. Digər tərəfdən isə qeyd etmək lazımdır ki, ermənilər tarixşünaslıqda hind-ari mənşəli deyil, Ön Asiya mənşəli adlandırılmışlar və Qafqazın yerli sakinləri olmamışlar. Xocalı-Gədəbəy mədəniyyətinə aid insan skeletlərinin araşdırılması isə onların min illər boyu bu ərazidə məskunlaşan qədim tayfaların sələfi olduğunu ortaya çıxarmışdır.

Araşdırmalar zamanı müəyyən edilmişdir ki, Xocalı-Gədəbəy mədəniyyəti e.ə. V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Bu mədəniyyətin etnik mənsubiyyəti ilə bağlı Azərbaycan tarixşünaslığında əsaslı bir fikir deyilməsə də, tarixi faktların və yazılı mənbələrin araşdırılması göstərir ki, Azərbaycanın böyük bir qismində – Göyçə hövzəsi, Qarabağ və Naxçıvanda məskunlaşan bu tayfalar Şərqi Anadolu və Urmiya hövzəsinədək irəliləmiş, Şərq tarixində böyük rol oynamışlar.

E.ə. I minillikdə Urartu mixi yazılarında Etiuni tayfa ittifaqının adı xatırlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı ilə nəşr olunan “Naxçıvan tarixi” çoxcildliyinin I cildində deyilir: “Urartulular Etiuni tayfalarının uzaq şimalda, Göyçə gölünün yaxınlığında yerləşdiyini xatırlasa da, qeyd etmək lazımdır ki, bu tayfalar Naxçıvanın qonşuluğunda yerləşən böyük tayfa birliyi olmuşdur. Bu dövrdə Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyəti yayılmışdı. Qeyd etmək lazımdır ki, Uti vilayətinin lokallaşdırıldığı ərazi Xocalı-Gədəbəy mədəniyyətinin yayıldığı ərazi ilə üst-üstə düşür. Antik mənbələr bu tayfaların yaşadığı ərazini Otena adı ilə xatırlamışdır. Bu tayfalar vaxtilə Naxçıvandan və Xudafərindən keçərək Azərbaycanın cənubunda məskunlaşmışlar. Araşdırmalar zamanı Oğlanqaladan Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı da aşkar olunmuşdur”. Urartu hökmdarı II Argiştinin Sisian yaxınlığında tapılmış kitabəsində deyilir: “Mənim qarşıma ...Etiuni ölkəsinin çarı gəldi, ölkəsinin vergisini mənə verdi...” Kitabənin mətni Göyçə gölü hövzəsində yaşayan Etiuni tayfa birliyinin Naxçıvan yaxınlığında yerləşdiyinə işarə edir və bu konfederasiyanın böyük ərazini əhatə etdiyini təsdiqləyir. Kitabənin mətni həmçinin Etiuni konfederasiyasına daxil olan tayfaların xərac verməklə işğaldan yaxa qurtardığını göstərir.

Cənubi Qafqazın mərkəzində məskunlaşan qəhrəman xalqımız uzun illər qədim dünyanın güclü dövlətlərinə qarşı mübarizə aparmış, onlara boyun əyməmişdir. Bu qədim və mübariz xalqın sələfləri olan xocalılar da 1992-ci ilin fevralında düşmənə müqavimət göstərmək üçün hazır idilər. Onlar tarix boyu yadellilərə boyun əyməmişdilər. Elə o gün də, fevralın 25-dən 26-na keçən gecə onlar düşmənə layiqli müqavimət göstərdilər. Onlar şəhid oldular, amma yenilmədilər, Vətəni qoyub qaçmadılar.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

***Amerikalı jurnalist və tədqiqatçı Peter Tase Azərbaycan Respublikasının Argentinadakı səfiri Məmməd Əhmədzadədən Xocalı soyqırımı ilə bağlı müsahibə almışdır. Həmin müsahibə Amerikada çap olunan ispandilli "Eurasia Hoy" qəzetində dərc olunmuşdur. Müsahibəni təqdim edirik.***

# Məmməd Əhmədzadə: "Xocalı hadisələrinə beynəlxalq ictimaiyyət tərəfindən layiqli, siyasi və hüquqi qiymət verilməlidir"



*26 fevral 2015-ci il tarixdə Azərbaycan xalqı və hər kəs Ermənistan qoşunlarının Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi və Xocalı soyqırımı kimi tanınan faciənin 23 illiyini xatırlayacaq. Bu soyqırımı Xocalıda, Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki bir şəhərdə törədilib. Azərbaycan Respublikasının Argentinadakı səfiri Məmməd Əhmədzadə Xocalı hadisələri və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı fikirlərini bölüşüb:*

***– Cənab səfir, Xocalıda nələr baş verib?***

– 1987-ci ilin sonlarında, sovet dövrünün son illərində Ermənistan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasına aid olan Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisinə qarşı açıq şəkildə iddialara başladı. 1991-ci ilin sonu və 1992-ci ilin əvvəllərində SSRİ dağıldıqdan sonra Ermənistan ölkəmizə qarşı hərbi təcavüzə başladı. Nəticədə, Azərbaycanın beynəlxalq qurumlar tərəfindən tanınan ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ ərazisi və ona bitişik yeddi rayon Ermənistan tərəfindən işğal edildi, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün öz evlərini tərk etmək məcburiyyətində qaldı. Bu gün Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan əraziləri xalqımız tərəfindən unudulmayıb. Erməni qoşunları tərəfindən Azərbaycana qarşı aparılan müharibə nəticəsində beynəlxalq hüququn ən ağır cinayətləri fonunda minlərlə ölüm və xəsarət törədilmişdir.

7000 azərbaycanlının yaşadığı Xocalının işğalı xüsusilə faciəli idi. 1991-ci ilin oktyabr ayından Xocalı erməni qüvvələri tərəfindən mühasirəyə alınmışdı. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə kütləvi artilleriya Xocalı şəhərinə daxil olaraq müxtəlif istiqamətlərdən hücum etməyə başlayıblar. Ermənistan qoşunları Xocalını işğal edərək, azərbaycanlı mülki əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək yüzlərlə insanı məhv etmişlər. Bu faciədə 106 qadın və 63 uşaq daxil olmaqla, 613 silahsız mülki vətəndaş qətlə yetirilib. Onlardan 56 nəfəri xüsusi amansızlıqla öldürülmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmiş, 130 uşaq bir valideynini itirmiş, 1275 nəfər girov götürülmüş və onlardan 150 nəfərin taleyindən isə bu günə qədər xəbər yoxdur.

***– Ermənistan rəhbərliyi Xocalıda baş verən hadisələri inkar edir. Bu barədə nə deyə bilərsiniz?***

– Ermənistan rəhbərliyi Xocalıda baş verən hadisələri inkar edir. Bütün bu törədilmiş cinayətlər, vəhşiliklər çoxsaylı müstəqil mənbələr və şahidlər tərəfindən sənədləşdirilmişdir.

Qeyd olunmalıdır ki, Xocalı hadisələri baş verdiyi dövrdə Ermənistan Respublikasının hazırkı prezidenti Serj Sarkisyan qeyri-qanuni separatçı rejimin rəhbəri idi. Belə ki, bu fakt ən mühüm sübutlardan biridir. Britaniyalı jurnalist Tomas de Vaal "Qarabağ: Ermənistan və Azərbaycan sülh və müharibə yolu ilə" kitabında Serj Sarkisyanla müsahibəsini ictimaiyyətə açıqlayıb və bu müsahibənin məzmunu erməni təbliğatının təhrifinə ən tutarlı cavabdır. Serj Sarkisyanın bu sözləri Xocalı faciəsini törədənlərin kim olduğuna dair heç kəsdə heç bir şübhə yeri saxlamır: "Xocalı faciəsinə qədər azərbaycanlılar fikirləşirdilər ki, bizimlə zarafat edə bilərlər və ermənilər mülki əhaliyə qarşı əl qaldırmazlar. İndi biz bu stereotipi qıra bildik və bu hadisə baş verdi".

Erməni müəllif Markar Melkonyan beynəlxalq terrorist kimi tanınan qardaşı Monte Melkonyana (Xocalı faciəsi barədə verilən qərarın iştirakçılarındandır) həsr etdiyi "Qardaşımın yolu: amerikanların Ermənistana sədaqətli səfəri" kitabında aydın şəkildə bildirir ki, ermənilər mülki əhalini Xocalıda necə qırıblar. Onun sözlərinə görə, Xocalının bəzi sakinləri faktik olaraq təhlükəsiz yerə gəlmişdilər, təxminən, 10 kilometr məsafədən sonra erməni əsgərləri onları tutdu və uzun müddət idi ki, bellərində olan bıçaqlarını çəkərək onları vurmağa başladılar.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri müharibənin səbəb və nəticəsinin ümumi qiymətləndirilməsi və Xocalıda törədilən bütün faciələr sübut edir ki, Azərbaycan xalqına qarşı törədilən cinayətlər təcrid edilmiş, yaxud təsadüfi hadisə deyil, regionun multikultural reallıqlarına zidd olaraq, ermənilərin qınanmalı ksenofobiya fikirləri ilə müəyyən olunmuş siyasi, sistemli və geniş yayılmış təcrübəsinin bir hissəsidir. Xocalıda mülki əhaliyə qarşı qəsdən törədilən qırğın əhalinin yalnız azərbaycanlı olmasına görə kütləvi şəkildə məhvi idi.

***– Xocalı faciəsinə dünya tərəfindən hansı münasibət və qiymət verilmişdir?***

– İnsan Hüquqları üzrə Avropa Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında bildirib ki, müstəqil mənbələrdən əldə edilən məlumatlar göstərir ki, erməni döyüşçüləri tərəfindən şəhərə edilən hücum zamanı, 25-dən 26-na keçən gecə Xocalıda yüzlərlə etnik azərbaycanlı mülki insan öldürülmüş, yaralanmış və ya girov götürülmüşdür. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Xocalıda Azərbaycanın dinc əhalisinə qarşı qırğını müharibə cinayətləri və ya insanlığa qarşı cinayət, nəhayət olaraq, xüsusilə ağır cinayət əməlləri kimi təsvir edir.

***– "İnsan Hüquqları Müdafiə" təşkilatı öz hesabatında Xocalıda baş verən hadisəni bu günə qədər Ermənistan və Azərbaycan arasındakı münaqişənin ən böyük qırğını kimi xarakterizə edir.***

– 2008-ci ildən İslam Konfransı Təşkilatının Mədəniyyətlərarası Dialoq Gənclər Forumunun Baş Koordinatoru Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" ***(www.justiciaparajodyali.org.ar)*** şüarı altında beynəlxalq maarifləndirmə kampaniyası həyata keçirilir. Bu kampaniyanın məqsədi törədilmiş vəhşilik əməllərini dünya ictimaiyyətinə çatdırmaqdır. Qeyd edək ki, Meksika, Pakistan, Türkiyə, Çexiya, Rumıniya, Bosniya və Herseqovina, Panama, Peru, Kolumbiya, Serbiya, İordaniya, Honduras, Sudan qanunverici orqanları, 15 ABŞ ştatı (New Mexico, Arkansas, Massachusetts, Maine, Texas, New Jersey, Mississippi, Oklahoma, Georgia, Tennessee, West Virginia, Connecticut, Florida, İndiana, Pennsylvania) və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın mülki əhalisinə qarşı erməni qoşunları tərəfindən törədilmiş vəhşilik hərəkətlərini pisləyən Xocalı hadisələri ilə bağlı qətnamələr qəbul etmişdir.

Xocalı faciəsi və azərbaycanlı mülki əhaliyə qarşı ermənilər tərəfindən törədilən digər cinayətlərə beynəlxalq ictimaiyyət layiqli siyasi və hüquqi qiymət verməlidir. Cəzasız cinayətlər yeni cinayətlərə yol açır.

***– Ermənistan və Azərbaycan arasında münaqişənin həlli perspektivi nədir?***

– Münaqişənin status-kvo vəziyyətində qalması çox təhlükəlidir və hər zaman bölgədə yeni genişmiqyaslı müharibəyə səbəb ola bilər. Buna görə də ABŞ, Rusiya və Fransanın birgə sədrlik etdiyi ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar qısa müddətdə müsbət nəticələrlə yekunlaşmalıdır. Azərbaycan tərəfi dəfələrlə hərtərəfli sülh sazişinin layihəsi üzərində işə başlamaq üçün hazır olduğunu bəyan edib.

1993-cü ildən bəri münaqişənin mühüm beynəlxalq normativ-hüquqi bazalı həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884-cü qətnaməsi, BMT-nin Baş Assambleyasının 2008-ci il 62/243 saylı sənədləri qəbul edilmişdir. Digər beynəlxalq təşkilatlar, belə ki, Avropa Şurası, ATƏT Parlament Assambleyası, NATO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatının Şurası ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilənləri pisləyərək Azərbaycanın beynəlxalq sərhədlərinin toxunulmazlığına hörməti bir daha təsdiq etmiş, Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyaraq işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Bütün bu sənədlər və qətnamələr Ermənistan tərəfindən yerinə yetirilməmiş qalır. Biz hesab edirik ki, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistan hakimiyyətinə daha çox təzyiq göstərilsə, Ermənistan öz təcavüzkar siyasətinə son qoya bilər.

Münaqişədə hazırkı status-kvo yalnız regional sülh və təhlükəsizlik üçün ciddi təhlükə deyil, həm də Ermənistanın qarşılaşdığı ciddi sosial-iqtisadi problemləri dərinləşdirir. Azərbaycan güclü iqtisadiyyata malik bir ölkədir, regional əməkdaşlıq, inteqrasiya və beynəlxalq arenada Xəzər hövzəsini Avropaya birləşdirən enerji və infrastruktur layihələrinin memarıdır. Münaqişənin həll edilməsi bölgəyə sülh gətirəcək, eyni zamanda Ermənistanı regional əməkdaşlığa cəlb edərək bu ölkənin qarşısında duran mürəkkəb sosial-iqtisadi problemlərin həllinə kömək edəcək.

Ermənistan hökuməti, təxminən, otuz ilə yaxındır ki, günahsız insanların həyatına son qoyan bu münaqişənin həllində əgər, həqiqətən, maraqlıdırsa regionda sülh və firavanlıq yaratmalıdır, konstruktiv münasibət nümayiş etdirməlidir, beynəlxalq hüquqa və yuxarıda adları sadalanan beynəlxalq təşkilatların tələb və qətnamələrinə hörmət etməlidir.

## Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb



***Yeni Azərbaycan Partiyası (YAP) Şərur Rayon Təşkilatı Xocalı faciəsinin 23-cü ildönümü ilə bağlı anım mərasimi keçirib.***

Əvvəlcə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

YAP Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev çıxış edərək bildirib ki, Xocalı faciəsi bəşər tarixinin ən dəhşətli faciələrindən biridir. Bu hadisə zamanı heç kimə fərq qoyulmadan – qocalar, uşaqlar, qadınlar xüsusi amansızlıqla qətlə yetiriliblər.

Qeyd olunub ki, öz vətəndaşlarının təhlükəsizliyini və müdafiəsini təmin etməyə borclu olan o dövrün hakimiyyət orqanları tam fəaliyyətsizlik nümayiş etdirərək müharibə şəraitində olan şəhərin və onun sakinlərinin xilasına çalışmayıb, vəzifə borclarının yerinə yetirilməsinə cinayətkarcasına məsuliyyətsiz yanaşıblar. Həmçinin o zamankı hakimiyyət qanlı faciəni dünya ictimaiyyətinə çatdırmağa səy göstərməyib.

Xocalı faciəsinin dünyada tanıdılması üçün ilk təşəbbüsün məhz ulu öndər Heydər Əliyev tərəfindən göstərildiyini qeyd edən Əmir Babayev daha sonra ölkə Prezidenti cənab İlham Əliyevin bu yöndə səmərəli fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Tədbirdə YAP Şərur Rayon Təşkilatı idarə heyətinin üzvü Vaqif Cabbarov, təşkilatın şura üzvü Ramin Şükürov, partiya fəallarından Məhərrəm Rəhimov, Zərifə Əliyeva, Eldəniz Musayev çıxış ediblər.

* * *

***Naxçıvan Tibb Kollecində də Xocalı faciəsinin 23-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Tədbiri giriş sözü ilə kollecin direktoru İlhamə Mustafayeva açaraq faciənin təfərrüatları haqqında məlumat verib. Bildirilib ki, Xocalı faciəsi misligörünməmiş qətliam olmaqla bəşəriyyətə qarşı ən dəhşətli cinayətdir. Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, eyni zamanda bu hərbi cinayətə beynəlxalq səviyyədə hüquqi-siyasi qiymətin verilməsi dövlətimizin əsas məqsədlərindən biridir. Hər il dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı ilə bağlı keçirilən kütləvi tədbirlər də erməni faşizminin iç üzünün açılmasına, baş vermiş faciənin mahiyyətinin ortaya qoyulmasına xidmət edir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, artıq dünya ictimaiyyətinin böyük bir hissəsi 1992-ci ildə Xocalıda törədilmiş bu ağır cinayətdən xəbərdardır.

Tədbirdə kollecin müəllimlərindən Rəna Vəliyeva və Xanım Kazımovanın çıxışları olub.

Sonda Xocalı faciəsinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında "Xocalı əsrin faciəsidir" adlı konfrans keçirilib.

Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Natəvan Qədimova açıb.

Kitabxananın zal müdiri Mehriban Qulamova "Xocalı – qan yaddaşımız" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı zamanı əsas hədəflərdən biri də Xocalı olub. Xocalı 1991-ci ilin oktyabrından blokadada idi. 1992-ci il fevral ayının ortalarından başlayaraq bu qədim oğuz-türk yurdu erməni silahlıları tərəfindən mühasirəyə alınıb hər gün ağır texnika ilə atəşə tutulurdu. Fevralın 25-dən 26-na keçən gecə Xocalıda günahsız insanlar, dinc sakinlər xüsusi amansızlıqla qətlə yetirilib.

Bildirilib ki, Xocalı həqiqətlərinin dünyaya çatdırılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində həyata keçirilən tədbirlər ardıcıl xarakter daşıyır. Ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımına etiraz edənlərin sayı dünyanın hər yerində ildən-ilə artmaqdadır. Artıq dünyanın bir çox parlamentləri Xocalı faciəsini soyqırımı kimi tanıyıb. Bir sıra parlamentlər isə bu barədə xüsusi bəyanatlar qəbul ediblər.

Sonra məruzə ətrafında çıxışlar olub.

Sonda kitabxanada təşkil edilmiş sərgiyə baxış olub.

## Xocalı soyqırımına həsr olunan bir dərs saatı



"Azərbaycan xalqı son 200 il ərzində erməni millətçi şovinistlərinin zaman-zaman bir neçə dəfə etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Nəticədə, həmvətənlərimiz tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunub. Qarabağın dilbər guşələrindən biri olan Xocalı da ötən əsrin əvvəllərində erməni daşnakları tərəfindən yandırılıb, viran edilib. Amma 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən soyqırımının nəticələri daha ağılasığmaz, daha dəhşətli olub. Öz miqyasına görə Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlıq və bəşəriyyət əleyhinə yönəlmiş ən ağır cinayətlərdən biridir".

Bu fikirlər dünən muxtar respublikamızın ali, orta ixtisas və ümumtəhsil məktəblərində, Heydər Əliyev adına Hərbi Liseydə Xocalı soyqırımına həsr edilmiş bir dərs saatında səsləndirilib, Xocalı soyqırımı ilə bağlı tələbə, kursant və şagirdlərə ətraflı məlumat verilib.

Dərslərdə Xocalı soyqırımına hüquqi-siyasi qiymətin verilməsindən də ətraflı bəhs edilib, bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərin əhəmiyyəti vurğulanıb.

**Xəbərlər şöbəsi**

# Xocalı

**işğaldan əvvəl**



**işğaldan sonra**



***1 yanvar 1989-cu ilin məlumatına görə, Xocalının əhalisi 20,9 min nəfər olub.***

***Xocalı rayonu 1991-ci il noyabrın 26-da Yuxarı Qarabağın dağətəyi hissəsində qədimdən azərbaycanlılar yaşayan Xocalı qəsəbəsi və onun ətrafındakı torpaqların hesabına yaradılıb. Sahəsi 93688 hektardır.***

***Xocalı rayonu əlverişli coğrafi mövqeyə, münbit torpaqlara malikdir. Dağlıq ərazilərin dağətəyi zona ilə birləşdiyi yerdə məskən saldığına görə burada insanların yaşayış şəraiti üçün tələb olunan münbit torpaqlar, su ehtiyatları boldur. Dəniz səviyyəsindən 580 metr hündürlükdə yerləşir.***

***Xocalı rayonu Şuşa-Ağdam yolunun üstündədir. Xocalı ilə ölkəmizin paytaxtı Bakı şəhəri arasında olan məsafə 375 kilometrdir.***

***Xocalı rayonu ərazisində Zərinbağ və Ağçay üzlük daşı yataqları, ehtiyatları 12 milyon 434 min ton olan qırmadaş və əhəng istehsalına yararlı əhəngdaşı yatağı, kərpic istehsalına yararlı Xocalı gil yatağı, ehtiyatları 7 milyon 280 min m³ olan qum-çınqıl qarışığı yatağı, istismar ehtiyatları 9 min m³/gün olan yeraltı şirin su yatağı mövcuddur.***

***Xocalı rayonu ərazisindəki Bədərə çayı hövzəsində fıstıq-palıd meşələri xüsusi olaraq qorunurdu.***

## Silahlı Qüvvələrimiz tarixi ədalətin bərpasına hər an hazırdır

**Xocalı faciəsinin səbəbləri haqqında indiyədək çox yazılmış, çox danışılmışdır. Bu cinayətin qarşısının alınmamasının mühüm səbəblərindən biri də həmin dövrdə mütəşəkkil ordumuzun olmaması idi.**

**1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri keçmiş Sovetlər Birliyinin 366-cı motoatıcı alayının şəxsi heyəti və döyüş texnikası ilə Xocalıya hücum etmişlər. Şəhərin müdafiəsində, əsasən, atıcı silahlarla silahlanmış yerli milis, könüllülər və Milli Ordumuzun təcrübəsiz, heç bir döyüş təlimi görməmiş əsgərlərdən ibarət dəstələri dayanmışdı. Xocalıya ağır texnika və artilleriya hücumları bu zəif müqaviməti tez bir zamanda qırdı, şəhər viran qoyuldu.**



Xocalı faciəsi zamanı və sonralar da Bakı şəhərində başı hakimiyyət davasına qarışmış ordu rəhbərlərinin vahid komandanlıq konsepsiyasının olmaması, özbaşınalıq, komandir vəzifələrinin dost-tanış arasında bölüşdürülməsi prinsipi yaxın bir il ərzində digər torpaqlarımızın da işğal edilməsi ilə nəticələnmişdir. Bu burulğanlı proseslər isə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışına qədər davam etmişdir. 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdan dahi şəxsiyyət Heydər Əliyev dərhal qarşıda duran iki əsas məsələni həll etməyə başlamışdır. Bunlardan birincisi atəşkəsi təmin etmək, ikincisi isə güclü ordu yaratmaq idi. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinə qədər ölkədə çox böyük faciələr baş vermişdi, torpaqlarımızın bir-birinin ardınca işğal edilməsi düşmənin sevinməsinə, xalqımızın, eyni zamanda orduda xidmət edən şəxsi heyətin böyük ruh düşkünlüyünə səbəb olmuşdu.

Gərgin proseslərdən sonra – 1994-cü ilin may ayında tərəflər arasında atəşkəs haqqında razılığa gəlindi. Çünki müharibənin davam etməsi ölkəmizə müsbət heç nə vəd etmirdi. Bundan sonra Azərbaycanda, sözün əsl mənasında, ordu quruculuğuna start verildi. Çox çətin, məsuliyyətli, ancaq həlli həddən çox vacib olan bu sahənin yenidən qurulması ölkəmizi yeni işğal dalğalarından qorudu.

Vurğulamaq lazımdır ki, ordu quruculuğu çox çətin prosesdir. Güclü ordu qurmaq yalnız maliyyə vəsaiti ilə mümkün deyil. İxtisaslı kadrların yetişdirilməsi, ruhən və fiziki baxımdan sağlam gənclərin orduya cəlb olunması, onlara hərbi texnikanın sirlərinin öyrədilməsi, hərbi sənayenin qurulmasının təmin edilməsi və sair böyük zaman, vəsait və qətiyyət tələb edən məsələlərdir. Ancaq Azərbaycan bunu bacardı. Bu gün ölkəmiz həm iqtisadi gücü, həm də güclü ordusu ilə fəxr edir. Cənubi Qafqazın ən güclü ordusu olan Azərbaycan Silahlı Qüvvələri ilə erməni ordusu arasında böyük bir fərq var. Azərbaycanın ilbəil artan iqtisadi gücündən orduya böyük vəsaitlərin ayrılması indi heç kimə sirr deyil. Silahlı Qüvvələrimizin döyüş arsenalında dünyanın ən güclü ordularında mövcud olan hərbi texnika və silahlar vardır. İndi Azərbaycanda yüzlərlə adda müxtəlif hərbi təyinatlı məhsul, o cümlədən bütün növ döyüş sursatı, müxtəlif texnika və silahlar istehsal olunur. Ölkəmizin hərbi sənaye məhsulları dünyanın müxtəlif ölkələrində təşkil olunan hərbi sərgilərdə nümayiş etdirilir və bu sahədə ixrac potensialı ildən-ilə artır. Bütün bunlarla yanaşı, ordumuzun maddi-texniki bazası da yenilənir, əsgər və zabitlərin sosial rifahı, mənzil-məişət şəraiti yaxşılaşdırılır. Bu tədbirlər ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə 18 dekabr 2013-cü il tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə muxtar respublikada keçmiş 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılmışdır. Ölkəmizin digər ərazilərində olduğu kimi, muxtar respublikamızda da müxtəlif qoşun birləşmələrinin mütəmadi olaraq taktiki təlimlərə cəlb olunması ordumuzun nəinki müdafiə qabiliyyətini artırır, eyni zamanda istənilən hücum planını yerinə yetirməyə imkan verir. Regionun təhlükəsizliyində mühüm rol oynayan Əlahiddə Ümumqoşun Ordusu bu gün muxtar diyarın təhlükəsizliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş istənilən hücumun qarşısını almağa və düşmənə layiqli şəkildə cavab verməyə qadirdir.

Bu gün Azərbaycan Ordusu düşmən üzərinə uzunmüddətli hücum əməliyyatlarına tam hazırlığı ilə diqqət çəkir. Təmas xəttində Silahlı Qüvvələrimizin, hələlik, müdafiə mövqeyində durması isə münaqişənin yalnız və yalnız sülh yolu ilə həlli prinsipi ilə izah oluna bilər. İlin əvvəllərindən başlayaraq daha aktiv şəkildə ordumuzu müxtəlif təxribatlara çəkmək üçün atəşkəsi pozmağa edilən meyillər, düşmən tərəfin təşkil etdiyi çoxsaylı kəşfiyyat-diversiya cəhdlərinin qarşısının uğurla alınması, hər dəfə düşmənin böyük itkilərə məruz qalması tez-tez rast gəldiyimiz faktlardandır. Ancaq yuxarıda da qeyd etdiyimiz kimi, ölkəmiz bu problemin sülh yolu ilə həll olunmasını istəyir. Əgər düşmən bunu istəmirsə, onda Silahlı Qüvvələrimizin ərazi bütövlüyümüz uğrunda müharibəyə başlayacağı da qaçılmazdır. Məsələyə real yanaşsaq, görərik ki, istər ötən əsrin əvvəllərində, istərsə də sonlarında torpaqlarımıza edilən hücumların ona görə vaxtında qarşısı alınmayıb ki, hərbi gücümüz yetərli olmayıb. Bu isə Xocalı kimi faciələrimizin baş verməsinə səbəb olub. Lakin indi nə ötən əsrin əvvəlləri, nə də sonlarıdır. İndi ordumuz da əvvəlki ordu deyil. Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad edəcəyi, Xocalı şəhidlərinin qisasının alınacağı gün uzaqda deyil. Bu qüruru isə bizə haqq uğrunda döyüşə başlayacaq Silahlı Qüvvələrimiz bəxş edəcək!

✍ **Səbuhi HƏSƏNOV**

## Döyüş havaları çaldırmalıyıq

**Yetər bu inilti, yetər göz yaşı,**
**Ər olsun yurdumun hər vətəndaşı,**
**Qaldıraq, sındıraq bu ağır daşı,**
**Döyüş havaları çaldırmalıyıq,**
**Milləti ayağa qaldırmalıyıq!**

**İgidlər yetirən bu yurd, bu torpaq**
**Nə qədər yadlara tapdaq olacaq?!**
**Bu gün qarşımızda bir yol var ancaq,**
**Döyüş havaları çaldırmalıyıq!**
**Milləti ayağa qaldırmalıyıq!**

**Biz ki türk nəsliyik, türk övladıyıq,**
**Bizə bata bilməz hər zatıqırıq,**
**Ey Mete, Atilla gücü üzə çıx.**
**Döyüş havaları çaldırmalıyıq!**
**Milləti ayağa qaldırmalıyıq!**

**Əsgər səngərindir, səngər əsgərin,**
**Qoruyaq, qədrini bilək səngərin,**
**Qanını oynadıb hər hünərvərin**
**Döyüş havaları çaldırmalıyıq,**
**Milləti ayağa qaldırmalıyıq!**

**Şəhidlik ən uca zirvədir, bəli,**
**Şəhid ruhları da deyir: – İrəli!**
**Olsun üstümüzdə Allahın əli.**
**Döyüş havaları çaldırmalıyıq,**
**Milləti ayağa qaldırmalıyıq!**

**Hər oğul vətənçün candan keçirsə,**
**Hər ağrı damardan, qandan keçirsə,**
**Biz də oğul kimi verib səs-səsə**
**Döyüş havaları çaldırmalıyıq!**
**Milləti ayağa qaldırmalıyıq!**

**Azadlıq uğrunda döyüşə qalxan,**
**Min-min qurban verən, ey Azərbaycan,**
**Qaldır başın üstə qılınc və qalxan,**
**Döyüş havaları çaldırmalıyıq,**
**Milləti ayağa qaldırmalıyıq!**

**Asim YADİGAR**


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Rauf Əliyev**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 179**